Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri həmin sərgidə təmsil olunaraq layiqli yerlər tutublar. Müsabiqəyə rəsmləri göndərilmiş dərnək üzvləri Tural Həsənov və Cahid Əzizovun rəsmləri I yerə, Arzu Məmmədova, Nərmin İsmayılzadə, Mərcan Məmmədova II yerə, Nicat Məmmədov isə III yerə layiq görülüblər.

Qaliblərə Yunanıstandan diplom və medallar, müsabiqənin kataloqu və "5-ci Biennale" Dünya Uşaq Rəsm müsabiqəsində iştirak etmək üçün xüsusi dəvətnamələr göndərilib. Mərkəzin yeniyetmə rəssamı Arzu Məmmədovanın işi müsabiqəyə təqdim olunan dünya uşaqlarının rəsm əsərləri arasından seçilərək müsabiqənin kataloqunun üz qabığına salınıb.